# UZAQDAN YAZAN ULDUZ,

## *yaxud, yazıçı Ulduz Qasım haqqında "Sözün Ulduz axarı" kitabı üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Əziz dostum Əli Rza Xələflinin tərtibçi-müəllif hüququnda nəşrə hazırladığı "Sözün Ulduz axarı" kitabı Moskvada yaşayan görkəmli nasir, publisist Ulduz Qasımın dəyərli yaradıcılığına həsr olunmuş məqalələr toplusudur. Əvvəlcə bir-iki məqama fikrimi bildirmək istərdim. Bu tipli kitablar son vaxtlar çox nəşr olunur, təəssüf ki, hətta tanınmış ədiblərimiz haqqında yazılmış kitablarda da müəlliflik hüququ göstərilmir. Mən naşir kimi dünyanın müxtəlif ölkələrinin poliqrafiya məhsulları ilə tanışam. Müxtəlif kitab sərgilərində iştirak etmişəm. Xüsusilə Türkiyədə hər hansı bir müəllifin yaradıcılığı ilə bağlı müxtəlif müəlliflərin məqalələrindən toplanmış kitablarda tərtibçinin, yaxud tərtibçi-müəllifin adı mütləq göstərilir. "Sözün Ulduz axarı" kitabında müxtəlif müəlliflərin yazıları bir araya gətirilib.

Kitab tərtibçiləri və naşirlər yaxşı bilirlər ki, bu iş dədə-baba dili ilə desək, iynə ilə gor qazmaq qədər çətin bir işdir. Müxtəlif mənbələrdən yazıları toplamaq, ayrı-ayrı mətbuat orqanlarında nəşr olunmuş məqalələri bir araya gətirmək tərtibçinin çox ağır zəhməti bahasına başa gəlir. "Sözün Ulduz axarı" kitabı da məhz belə bir zəhmətin bəhrəsidir. Əlbəttə bu kitabda tərtibçi Əli Rza Xələflinin xeyli məqalələri var. Ulduz Qasımın ahyrı-ayrı əsərləri, publisistik düşüncələri ilə bağlı rəyləri yer alıb. Ona görə də elə bu kitabın müəlliflik hüququ ona məxsusdur. Və bu səbəbdən də "Sözün Ulduz axarı" kitabının üzərində tərtibçi-müəllif imzasının göstərilməsi qanunauyğundur.

Bir də kitabın adı ilə bağlı qənaətlərimi də oxucularla bölüşmək istərdim. Bunun üçün əvvəlcə Ulduz Qasım kimdir sualına qısa da olsa cavab vermək mütləq lazımdır.

Ulduz Qasım Moskvada yaşayır. Onun Azərbaycandan ayrıldığı zaman az qala yarım əsrin hüdudlarına çatmaqdadır. Ancaq o, bir gün də olsa, vətəndən kənarda olmayıb. Qəlbi həmişə vətənlə bir döyünüb. Yurdun ağrı-acısını da elə yurdun özündə, hadisələrin şahidi kimi çəkib. Təsadüfi deyil ki, onun demək olar ki, bütün əsərlərində, artıq dünyanın bir çox ölkələrində nəşr olunan və geniş oxucu auditoriyası qazanmış romanlarında Azərbaycanın 35 illik həyatı, bu həyatın, demək olar ki, hər tərəfi bütün ağrı və acıları ilə sözə gətirilib.

Ulduz Qasım ilhamlı yazıçıdır. Bəlkə də onun həyatı boyu ən üstün, ən sevimli məşğuliyyəti elə yazmaqdır. Mən onun bir neçə kitabını nəşr etmişəm. Xüsusilə "Maral" romanını nəşr edərkən onun Azərbaycanla nə qədər güclü mənəvi bağlılığa malik olduğunu görəndə qəlbim qürur hissi ilə döyündü. O, qələmi ilə döyüşən, vətən uğrunda savaşan bir əsgər gücü ilə sözə söykənir. Bir-birinin arxasınca yazıb nəşr etdirdiyi "Qarabağda qiyamət", "Qaçaq Aslan", "Qürbət Zöhrəsi" kimi romanları Azərbaycan mənəvi mühitinin əsl güzgüsüdür. Xüsusilə "Qarabağda qiyamət" romanında, eləcə də, "Xocalı şikəstəsi"ndə Qarabağ, onun dərdləri, yaraları, nəhayət, qalibiyyət savaşı bütün reallıqları ilə sanki göz doymayan bir mənzərə yaradır.

Ulduz Qasım haqqında yazan müəlliflərin demək olar ki, hamısı onun yaradıcılığındakı dil axıcılığını, ilhamlı təsvirləri yüksək qiymətləndirir. İndi sözümün evinə gəlirəm. Tərtibçi-müəllif Əli Rza Xələfli məhz Ulduz Qasım yaradıcılığının bu axarlı məziyyətini nəzərə alaraq araya-ərsəyə gətirdiyi kitabı "Sözün Ulduz axarı" adlandırmaqda haqlıdır. Onu da qeyd edim ki, Əli Rza Xələfli Ulduz Qasımın yaradıcılığını kifayət qədər mükəmməl öyrənib. Demək olar ki, onun qələmindən çıxmış bütün əsərləri, hətta yaradıcılığının ilk çağlarında qələmə aldığı şeirlərini, qəzet məqalələrini, bir sözlə, sənətkarın nəyi varsa hamısını düşüncəsindən keçirib və Ulduz Qasımın həyatını və yaradıcılığını ehtiva edən "Yazıçının vətən dağı" adlı iki cildlik tədqiqat əsəri yazıb. Əlbəttə, bu dəyərli tədqiqat əsərini mən də diqqətlə oxumuşam. Həmin kitablarla bağlı qeydlərimi yazıb "Kredo" qəzetində çap etdirmişəm.

Yeri gəlmişkən, burada bir məsələni də qeyd etmək istərdim. Ulduz Qasımın bir sənətkar kimi Azərbaycan ədəbi-mənəvi mühitində tanıdılması üçün "Kredo" qəzetinin əvəzsiz xidmətləri olub. Bu qəzetdə Ulduz Qasımın ədəbi-publisistik qeydləri, əsərlərindən parçalar, Azərbaycanın ictimai-siyasi həyatında baş verən yeniliklərlə bağlı qeydləri ardıcıl nəşr olunub. Ən başlıcası, indi Azərbaycanda çox oxunan bir sənətkar kimi Ulduzun əsərləri haqqında rəylər, təhlili yazılar da bu qəzetdə ardıcıl nəşr olunub. Elə indi nəşrə hazırlanan "Sözün Ulduz axarı" kitabında toplanan məqalələr göstərir ki, Azərbaycan ədəbi-mənəvi mühitində az-çox sözü olan hər kəs onun yaradıcılığına məmnuniyyətlə münasibət bildirib. Bir yazıçı üçün bu çox dəyərli münasibətdir.

Nəhayət, "Yazıçının vətən dağı" monoqrafiyasını Ə.R.Xələfli yazdıqca hissə-hissə "Kredo" qəzetində nəşr edib. Beləliklə, demək olar ki, son beş il ərzində Ulduz Qasım öz əsərləri ilə və haqqında yazılanlarla birgə Azərbaycan oxucusu ilə hər həftə görüşə gəlib.

Yaxşı yadımdadır, "Maral" romanını oxuyanda Ulduz Qasımın yazıçı iztirablarının şahidi olmuşam. O, Rusiyada yaşayan azərbaycanlıların faciəli taleyini, həyat uğrunda mübarizələrini nə qədər doğmalıqla təsvir edib. Hətta elə məqamlar olub ki, onun qəhrəmanlarının real iztirabları mənim qəlbimi də göynədib. Mən Ulduza dedim ki, sən elə Maralın özü qədər ağrı çəkən bir vətən övladısan. Sonralar bir ədəbi görüşdə, Ulduzub yeni kitablarının təqdimatında və əlbəttə, həm də "Maral" əsərinin təqdimatında mən də iştirak etdim, çıxış elədim və həmin fikrimi orada da bildirdim. "Maral" romanı haqqında yazan müəlliflərdən biri mənim həmin düşüncələrimi xüsusi olaraq diqqətə çatdırmışdı. Əlbəttə, mən sözə hörmətlə yanaşan bütün müəlliflərə bir naşir minnətdarlığımı bildirməyi də özümə borc bilirəm.

İndi söhbət "Sözün Ulduz axarı" kitabından gedirsə, bu kitaba toplanmış materiallar haqqında da mülahizələrimi bildirmək, zənnimcə, yaxşı olardı. Onu da deyim ki, yazıçının öz zamanında, sağlığında yaradıcılığının dəyərləndirilməsi hər bir müəllifə, sənətkara sonsuz mənəvi zövq bəxş edir. Görkəmli sənətkarımız Cabir Novruz da doğru deyirdi ki, sağlığında qiymət verin insanlara. Bu mənada Ulduz Qasım bir müəllif olaraq müasirlərinin diqqətindən kənarda qalmayıb. Tanınmış ədiblərin, tənqidçilərin, publisistlərin onun əsərlərinə tədqiqat məqalələri həsr etmələri elə ən böyük mükafatdır. Bəli, Ulduz üçün bu mükafat onun dövrünün münasibətinin bəhrəsidir. Və əlbəttə, bu mükafat yox yerdən gəlmir. Ulduzun böyük zəhmətinin bəhrəsi olaraq araya gəlir. "Sözün Ulduz axarı" kitabında görkəmli filoloq-alim, məşhur yazıçı-publisist Elçin Mehrəliyevin də maraqlı qeydləri var. E.-Mehrəliyevin ayrı-ayrı yazılarından başa düşülür ki, o, Ulduz Qasımı hələ tələbəlik illərindən tanıyıb. Məqalələrinin nəşrinə işlədiyi "Azərbaycan gəncləri" qəzetində məmnunluqla yer ayırıb. Bəli, hər hansı bir istedadlı gənci kəşf etmək, onu yazıya, yaradıcılığa həvəsləndirmək ziyalılıq missiyasıdır. Bu mənada, Elçin Mehrəliyev bir ustad kimi U.Qasımın yaradıcılığına həmişə xüsusi diqqət yetirib. Kitabdakı yazılardan birini diqqətimdən keçirirəm. Elçin Mehrəliyev "Ulduzun romanları yazıçının vətən dağında" adlı məqaləsində Ə.R.Xələflinin U.Qasım yaradıcılığına həsr olunmuş ikicildlik monoqrafiyasından bəhs edir və Ulduz Qasımın yaradıcılığının ilk dövrlərini yada salaraq yazır: "Mən "Yazıçının vətən dağı" kitabının birinci cildində də bu barədə yazmışdım ki, Ulduz Qasım ədəbiyyat üçün təsadüfi obraz deyil, O hələ məktəb illərindən yazmağa başlayıb. İlk yazıları Cəbrayılda - rayon qəzetində işıq üzü görüb. Onun sözlə qırılmaz əlaqəsi dövrün ən nüfuzlu təhsil ocağında, universitetdə, ən nüfuzlu fakültədə, "Jurnalistika" ixtisasına yiyələndiyi dövrdə də davam etmişdir. O zaman mən gənclər arasında çox populyar olan "Azərbaycan gəncləri" qəzetində işləyirdim. Fəal tələbələrlə ciddi yaradıcılıq əlaqələrimiz vardı. Və mən o vaxt da Ulduzun istedadını təsdiq edən qeydlərimlə mətbuatda çıxış etmişdim. Nəhayət, mən Ulduzu təzədən, öz romanları ilə gördüm. O, sözün həqiqi mənasında çox ciddi yazıçı təxəyyülü və qarşısıalınmaz istedadı ilə ədəbiyyata gəlmişdi. İndi bir-birinin arxasınca təkcə Azərbaycanda yox, xarici ölkələrdə də nəşr olunan əsərləri ilə ədəbiyyat cəbhəsinin aparıcı yazarlarından biri kimi tanınır. Ömrünün 40 ilini vətəndən uzaqlarda yaşayan Ulduz Qasımı vətənə bağlayan tellər nə qədər onun şəxsi iradəsi ilə bağlıdırsa, bir o qədər də ziyalı mövqeyi ilə ilişkilidir". Doğru olaraq müəllif öz məqaləsində göstərir ki, Ulduz Qasım ədəbiyyata çox ciddi yazıçı təxəyyülü ilə gəlib. Mən də bu fikirlə razılaşaraq yazıram ki, həyatın gözlənilməz axarları, bir çox təzadlı münasibətlər U.Qasımın yazmaq, yaratmaq həvəsinə mane ola bilməyib. Elə E.Mehrəliyev də onun istedadının qarşısıalınmazlığını nəzərə alaraq sənətkara layiq olduğu dəyəri verməyə çalışmışdır. Maraqlıdır ki, müəllif öz qeydlərinin sonunda Ulduz Qasımın doğulub-böyüdüyü Cəbrayıl rayonunun ərazisindəki sərhəd acılarımızın daşıyıcısı olan Xudafərin körpülərini yada salaraq yazır: "Biz körpü deyəndə həmişə Xudafərini yada salırıq. Xudafərin xalqımızın tarixi taleyində böyük rəmzdir. Ulduz Qasımın yazıçı idealı böyük Azərbaycan üçün əsl Xudafərin körpüsüdür". Doğru sözə nə deyəsən?! Mən E.Mehrəliyevin bu qənaəti ilə tam razıyam və bircə onu əlavə edirəm ki, U.Qasım yazıçı kimi Azərbaycanla Rusiyada yaşayan milyonlarla azərbaycanlının ruhunu birləşdirmək gücündə olan bir sənətkardır, bu mənada elə o, həqiqətən körpüdür.

Kitabdakı bütün yazılar ən müxtəlif tərəflərdən oxucu diqqətinə layiqdir. Əlbəttə, mən bütün yazılar haqqında geniş və əhatəli danışa bilməsəm də bəzi müəlliflərin qeydlərində məramı aydınlaşdırmağa kömək edən məqamlara xüsusi diqqət etmək istərdim. Şair-publisist Ulduz Qasımın "Maral" romanının redaktoru kimi əsərin nəşrə hazırlanmasında xüsusi zəhməti olan Ə.R.Xələflinin "Faciənin və inamın fövqündə, yaxud, Ulduz Qasımın "Maral" romanı üzərində düşüncələr" adlı qeydlərində baxıram. Müəllif U.Qasımın milli köklərinə bağlılığını, vətənlə nəfəs almasını özünəməxsus fikir gəzişmələri ilə yazıya belə gətirir: "Soy kökünə görə türk olub, azərbaycanlı olub xarici ölkələrdə taleyin bəxş etdiyi yol olaraq yaşamalı olan elə sənətkarlar var ki, onlar nəinki dili unudub, hətta mənşə etinarı ilə də yadlaşıblar. Yaşayıb-yaratdıqları ölkənin ünvanı ilə tanınıblar, yad xalqların sənətkarı kimi şöhrət tapıblar. Dil mühüm amildir, Nə qədər ki, doğma dil sənətkarın varlığına hakimdir, onun harada yaşamasının məsələyə dəxli yoxdur. Mənsub olduğu xalqın mənəvi mühitini dilinin gücünə öz varlığında hifz edəcək. Və milli soy kökə bağlılığını da yaratdığı əsərləri ilə təsdiqləyəcək. Azərbaycandan kənarda yaşayan görkəmli sənətkarlardan biri də Ulduz Qasımdır. O, qırx ildən çoxdur ki, Moskvada yaşayıb-yaradır. Əsas odur ki, Ulduz Moskvaya gedərkən (ümumiyyətlə, Rusiyaya) Azərbaycan mənəvi mühitini kifayət qədər varlığına hopdurmuşdu. Görünür, elə bu səbəbdən də rus dilini ela bilsə də, doğma dilindən imtina etməyib, özü demiş, Azərbaycan üçün yazıb-yaradıb". Müəllif burada sözünə davam edərək təhlilləri ilə göstərir ki, Ulduz Qasım Rusiyada, Moskvada sadəcə öz həyatını yaşamır, hətta yazıçı yaşamaqla da kifayətlənmir. O, bir növ Rusiyadakı azərbaycanlıların mənafeyinin müdafiəçisi kimi də mübarizdir. Hətta o, qonşu dövlərdə Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikasının mənafeyi naminə inadlı lobbiçi kimi də çıxış edir.

Mənim yaxşı yadımdadır. Qarabağ hadisələrinin başlanğıcında ermənilərin dünyaya səpələnmiş nümayəndələri demək olar ki, birləşmişdilər. Onlar güclü lobbi sistemi yaratmışdılar. Və xaricdən Ermənistana hər cür dəstək göstərməkdə idilər. Bu da onu göstərir ki, erməni lobbisi harada olursa, olsun Ermənistanın mənafeyi uğrunda mübarizəni özünə borc bilmişdi.

*(Davamı 11-ci səhifədə)*

# UZAQDAN YAZAN ULDUZ

*(Əvvəli 10-cu səhifədə)*

Ulu Öndərin zamanında xaricdə yaşayan azərbaycanlıların birləşdirilməsi uğrunda mübarizə genişləndi. Ulu öndərin azərbaycançılıq ideologiyası bu birlikdə xüsusi əhəmiyyət kəsb etdi, azərbaycançılıq uğrunda mübarizə geniş vüsət aldı.

Ulduz Qasım kimi yazıçılar bir növ fədakar lobbi obrazını öz ruhlarında tapdılar. Əsərləri ilə Azərbaycan həqiqətlərini yaşadığı ölkədə Ulduz Qasım da soydaşlarımızın hər birinə çatdıra bildi. Bunun üçün o, fədakar yazıçılığı ilə birgə soydaş, vətəndaş missiyasını da şərəflə yerinə yetirirdi. Ə.R.Xələfli, görünür, bu məqamları diqqətdə saxlayaraq Ulduz Qasımın yazıçılığı ilə lobbi obrazını birləşdirərək yazır: "Ulduz Qasım qələmini ədəbiyyatın müxtəlif janrlarında inamla işlədir. Ardıcıl olaraq publisistik yazıları ilə sosial şəbəkələrdə Azərbaycan dəyərləri uğrunda mübarizəsini davam etdirir. Yeri gəldikcə, Azərbaycan həqiqətləri haqqında rus dilində də yazılarla çıxış edir. Azərbaycanda baş verən olayları Rusiya oxucularına da çatdırır. Amma birmənalı olaraq, Ulduz Qasım Qarabağın taleyini yazmağı özünün həyat kredosu kimi qəbul edir. XX əsrin son on illiyi və XXI əsrin iki on illiyi - bir az da dəqiqləşdirsək, bir qərinəlik zaman içərisində baş verən hadisələr bu istedadlı və zəhmətkeş yazıçının yaradıcılığında Qarabağ salnaməsi kimi təzahür edib. Onun "Solmayan nərgiz", "Xocalı şikəstəsi", "Qarabağda qıyamət", "Ağ göyərçinlər" kimi çox maraqlı romanları erməni vandalizminin iç üzünü həyatı reallıqlarla açа bilən əsərlərdir. Onun silsilə romanları sanki bir-birinin davamı olaraq işğal dövrünün bədii tarixi kimi də qavranıla bilər. Ancaq bu o demək deyil ki, Ulduz yalnız Qarabağ mövzusuna qapanıb. Bəli, o, həyatın ən müxtəlif tərəflərini əks etdirən dəyərli əsərlərin də müəllifidir". Göründüyü kimi Ulduz Qasımın yaratdığı dəyərli romanları bu qeydləri diqqətə çəkilir. Sanki oxucu yaddaşına diktə olunur ki, sən bu tarixi mükəmməl və dərindən öyrənmək üçün Ulduz Qasımın adı çəkilən əsərlərini diqqətlə oxumalısan. Bir sözlə, oxumadan, öyrənmədən yaşadığın dövrü və tarixi də dərk edə bilməzsən.

Onu da qeyd edim ki, Ə.R.Xələfli "Sözün Ulduz axarı" kitabını tərtib edərkən mənim qeydlərimi də yaddan çıxarmayıb. Mən Ulduz Qasımın "Maral" romanı haqqında "İnsanlığın tərənnümü" adlı geniş və əhatəli bir məqalə də yazmışdım. Açığı, həmin məqaləni bu dəyərli kitabda görəndə xeyli qürurlandım. Düşündüm ki, yazıya pozu yoxdur - sözü nəsillərin yaddaşında təsadüfi deyil ki, əbədiləşib. Zənnimcə, burada həmin qeydlərdən kiçik bir parçanı yada salmağım yerinə düşər: "Axır ki, mən Ulduz Qasımı belə tanıdım. Ən başlıcası, bildim ki, Ulduz Qasım vətən ruhlu, yurd sevdalı bir yazıçıdır. Vətəndən uzaqlarda yaşasa da, heç bir an da olsun vətəndən kənarda olmayıb. Onun yazı ruhu "Yazıçının vətən dağı" iki cildliyində kifayət qədər aydın duyulur və sənətkarlığı qədərincə görünə bilir. Nəhayət, mən çox istəyirdim ki, Ulduz Qasımın xalq arasında sevilən sənətkar obrazını onun özünün bədii əsərlərində görə bilim. Belə bir imkan indi yaranıb. Uzun illərdən bəri birgə naşirlik fəaliyyəti göstərdiyimiz Əli Rza Xələfli onun yeni bir əsərini mətbəəyə təqdim edəcəyini bildirdi. Çox istədi ki, mən də həmin əsər üçün bir rəy yazım. Doğrusu, düşündüm ki, yığcam bir annotasiya yazaram. Amma təqdim olunan romanın ilk bilgisayar - kompüter nüsxəsini vərəqlədim, ayrı-ayrı hissələri oxudum. Gördüm ki, yox, bu məsələ ötəri münasibətlə ötüşə bilməz. Yəqin ki, Ulduz Qasım məni o qədər də tanımır. Hərçənd ki, indi Amerikada, Avropada, Asiyada, Afrikada yaşayan hər hansı bir sənətkar haqqında müəyyən səviyyədə məlumat almaq o qədər də çətin deyil, Əgər yazıçı Ulduz Qasım mənimlə, mənim yazıçılıq taleyimlə, naşirlik fəaliyyətimlə maraqlansa, sosial şəbəkə onun üçün ən yaxşı mənbə ola bilər, Ancaq bütün bunlara baxmayaraq, mən çox istərdim ki, Ulduz Qasıma və vətəndən kənarda yaşayan yaradıcı həmvətənlərimizə, soydaşlarımıza naşır) lik fəaliyyətimlə bağlı qısa da olsa, məlumat verim". Əlbəttə, indi həmin məqaləni burada təzədən təhlil etmək və geniş şəkildə münasibət bildirmək fikrində deyiləm. Sadəcə bu qeydlərimlə Ulduz Qasım kimi bir müəllifin oxucu aləminə doğru gedən yoluna işıq salmaq istəmişdim. İnsanın mənəvi zənginliyi onun həyatı, duyumu ilə tamamlanır. Ulduz Qasım həyatı bilən sənətkar olduğu üçün çox zəngin bir müəllifdir. Və elə buna görə də ardıcıl olaraq yazmaqda, yaratmaqda davam edir.

Mən Ulduz Qasımın yaradıcılığını, əlbəttə, yüksək səviyyədə təqdir edirəm. Ancaq görkəmli ədəbiyyatşünas alimlərin, tənqidçilərin onun haqqında məmnunluqla yazmalarını da çox yüksək qiymətləndirirəm. Bu baxımdan yanaşma ilə görkəmli alimlərin Ulduz Qasım yaradıcılığına münasibələrini əks etdirən məqalələri oxuduqca onun, yəni Ulduz Qasımın mənəvi üfüqlərimizi nə qədər genişləndirdiyinin şahidi oluram. Hətta Ulduz Qasım yazıçı olaraq ədəbiyyatşünas alimlərə imkan verir ki, söz sənətimizin daha dərin qatlarına nüfuz etsinlər. Alimlər Ulduz Qasımın yaradıcılığından ilhamlanaraq yerinə görə həyat, cəmiyyət və ən başlıcası, söz haqqında mənəvi düşüncələrini, duyğulanmalarını da həvəslə yazıya gətirirlər. Professor Yədulla Ağazadənin "Yazıçı ağrısı, tənqidçi düşüncəsi" adlı çox dəyərli məqaləsinin əvvəlində verilmiş bir parça ikönlümnü riqqətə gətirdi. O, çox səmimi duyğularla yazır: "Ədəbi tənqidin yaradıcılıq olduğunu bizdən əvvəl deyənlərin qənaətlərinə şərik olduğumu dana bilmərəm. Çünki ədəbi tənqid və ədəbi publisistika bir çox hallarda cəmiyyətlə ədəbiyyat arasında anlaşma körpüsü yaradır. Hətta bir çox hallarda ədəbi tənqidsiz, ədəbi-publisistik təhlillərsiz bədii yaradıcılığın sirləri oxucular üçün (və deməк, cəmiyyət üçün) axıracan açıla bilməzdi. Ona görə də ədəbi tənqid yaradıcılığın mühüm sahələrindən biri kimi ciddi ədəbiyyat araşdırıcıları, söz-sənət bilіciləri üçün mühüm yaradıcılıq sahəsi olaraq qəbul edilir. Onu da deyim ki, ədəbi tənqidin tarixi elə bədii yaradıcılığın tarixi qədər qədimdir. Xətib Təbrizinin şərhlərində, Nizaminin öz yaradıcılığına münasibətində, elə Füzulinin dövrünün ədəbi mənzərəsinə münasibətində ədəbi tənqid bu və ya digər dərəcədə var və bu da bu mühüm yaradıcılıq sahəsinin möhkəm özüllər üzərində formalaşdığını təsdiq edir. Doğrudur. ədəbi tənqidin nə vaxtsa öləziyə biləcəyi haqqında bu və ya digər dərəcədə mülahizələr də səslənir. Ancaq yazılanın fikir müstəvisinə çəkilməsi, nəyin yaxşı, nəyin pis olduğunu ayırmaq cəhdləri əbədi yaşarı münasibət olduğuna görə ədəbi tənqidin taleyi haqqında nikbin düşünməyə əsas verir". Müəllif qeydlərinin davamı olaraq, "Yazıçının vətən dağı" kitabının I cildi ilə bağlı düşüncələrini oxucularla məmnunluqla bölüşür. Artıq qeyd etdim ki, həmin monoqrafiya Ə.R.Xələflinin Ulduz Qasımın yaradıcılığına həsr etdiyi tədqiqat əsəridir. Elə buna görə də məqalə müəllifi Azərbaycan ədəbiyyatşünaslığının görkəmli simalarını xatırlayır və Ə.R.Xələflinin sələflərindən yaradıcılıqla bəhrələnməsini qeyd edir. Ədəbiyyatşünaslıq elmimizin ən yaxşı ənənələrinin davamçısı kimi özünü təsdiq edir. Əlbəttə, burada təfərrüata varmağa lüzum qalmır. Sadəcə onu qeyd edirəm ki, Yadulla Ağazadə Ulduz Qasım yaradıcılığına bir neçə dəfə müraciət edir və hər dəfə yazıçının mənəvi mühitinin dərin qatlarına nüfuz etməklə maraqlı mülahizələrini oxucularla bölüşür.

"İşıq yaradan sızar" adlı qeydlərində də biz professor Y.Ağazadənin səmimi mülahizələri ilə tanış olur və onun U.Qasım yaradıcılığına dəyərli münasibətini təqdir edirik.

U.Qasım fəal publisistdir. Onu da qeyd edim ki, hətta sosial şəbəkənin imkanlarından istifadə edərək ən mübahisəli məsələlərə prinsipial və əqidəli yanaşması ilə diqqəti cəlb edir. Onun maraqlı məqalələrindən biri Ə.R.Xələflinin sosial şəbəkədə yayılmış şərhlərinə həsr olunub. Və müəllif həmin yazısını "Nöqtələrin dedikləri" adlandırır.

Mən də müşahidə etmişəm. Əli Rza Xələfli sosial şəbəkədəki qeydlərində çox nöqtələrdən aşırılıqla istifadə edir. Yəni müəllif olaraq o, fikirləri çox açıqlamağa lüzum görmür, düşüncələrini tezis şəklində ifadə edir və qalan hissəni oxucunun ixtiyarına buraxır. Bunu Ulduz Qasım da müşahidə edib. Həmin "Nöqtələrin dedikləri" adlı məqaləsində yazıçı həmkarının oxucu ixtiyarına buraxılmış mülahizələrinin mahiyyətini açmağa çalışır. Onu da qeyd etməliyəm ki, yazıçının maraqlı məqalələrindən ibarət toplunu Əli Rza Xələfli elə "Nöqtələrin dedikləri" adı ilə nəşrə hazırladı, həmin nəşrə mən də rəyimi yazdım və Ulduz Qasımın yeni ədəbi-publisistik kitabı işıq üzü gördü.

"Sözün Ulduz axarı" kitabına toplanmış məqalələrin sırasında Ə.R.Xələflinin "Nöqtələrin dedikləri"nə cavab əvəzi" essesinə də rast gəldim. Maraqlı fikir, düşüncə məhsuludur. İki sənətkarın sanki bir-biri ilə dialoqudur. Hər halda bu qeydlərdə müəllif oxucu ruhunu mənəvi təmizlənməyə çəkir. Sözlə oxucunun qəlbinə səmimi duyğular aşılayır.

Əlbəttə, Ə.R.Xələflinin bu kitabda çoxlu yazıları var. "Vətən üçün yanan Ulduz", "Yazıçının vətən dağı" kimi maraqlı qeydlərin hər biri xüsusi diqqət və yanaşma tələb edir. Fikir, düşüncə zəngin olanda, həyatla sənətin ahəngdar birliyi cəmiyyətin mənəvi mühitinə daha tez təsir göstərir. Kitabda Təranə Əlizadənin, Fariz Çobanoğlunun, Məhəmməd Nərimanoğlunun, Müqəddəs Mehdiyevin, Tahir Aydınoğlunun çox maraqlı yazıları yer alıb.

Tahir Aydınoğlu nüfuzlu qələm sahibi kimi məhsuldar əməyi ilə tanınır. O, Ulduz Qasımın yaradıcılığını demək olar ki, yaxşı bilir. Ayrı-ayrı kitablarının redaktoru olub. Müxtəlif əsərlə haqqında fikir və rəylərini də yazıb çap etdirib. Onun "Qarabağ zəfərinin bədii salnaməsi" adlı qeydlərində oxuyuruq: "İnanırıq ki, Qarabağ münaqişəsi və müharibəsi mövzusunda silsilə bədii əsərlər yazmış yurdsevər soydaşımız Ulduz Qasımın bu çoxillik mübarizənin zəfər zirvəsi olmuş Vətən müharibəsinin ilk irihəcmli bədii salnaməsi "Qarabağda qiyamət" romanının ayağı sayalı olacaq, milli ədəbiyyatımız bu mövzunu yeni nəsr əsərləri ilə zənginləşdirəcək. Roman bu sözlərlə bitir: "Şuşanın azadlığından bir gün sonra ətraf rayonlardan bir neçə yaşayış məntəqələri azad olundu, döyüşçülərimiz Xankəndiyə çatdılar... Və sonra...". Gəlin, bu yarımçıq cümlənin davamını müəllifin yeni əsərində gözləyək". T.Aydınoğlunun kitabda digər yazısını da maraqla oxudum. Yazı "Sözün divanında" adlanır. Söz yox ki, yazıçı-publisist Zemfira Məhərrəmlinin qeydləri də fikir aydınlığı ilə diqqəti cəlb edir. Müəllif bu qeydlərində yazıçı Ulduz Qasımın Qarabağnamələr silsiləsinə diqqəti yönəldir. Səmimi yanaşması ilə oxucu və yazıçı arasında körpü yaratmağa çalışır.

Yeri gəlmişkən, burada qeyd etməliyəm ki, sosial şəbəkə indi həyatımızın bir hissəsidir. Bu hüdudsuz sistemdə hər kəs fikir və düşüncələrini dövrünün, mühitinin insanları ilə bölüşmək imkanı əldə edir. Yuxarıda qeyd etdim ki, U.Qasım sosial şəbəkədə də çox fəaldır. Ən müxtəlif məsələlərdə maraqlı polemikalar yarada bilir. Mübahisələri, fikir bölüşmələri oxucu yaddaşında qalır. Görünür, elə bu səbəbdən Ə.R.Xələfli kitabı tərib edərkən U.Qasım yaradıcılığına münasibət bildirən sosial şəbəkə istifadəçilərinin qeydlərini də daxil edib.

Doğrusu, status janrı publisistikamızda dövrün tələbi olaraq meydana çıxıb. İndi haqlı olaraq həyatımızı statuslardan kənarda təsəvvür edə bilmərik.

İnsafən, kitabda toplanan materialların, demək olar ki, hamısı seçmə qələm məhsullarıdır. Təranə Əlizadənin qeydləri, sözün həqiqi mənasında, oxucunun ruhuna işıq salır. Kövrək notlarla qələmə aldığı yazısında müəllif Ulduz Qasıma da, onun qəhrəmanlarına da sanki sonsuz sevgisini ifadə edir.

Publisist Fariz Çobanoğlu da U.Qasımın yaradıcılığının sevə-sevə oxuduğunu qeyd edir. Onun ədəbi qəhrəmanlarını həyatdakı prototipləri ilə müqayisəyə çəkir.

Nəzirməmməd Zöhrablı özünəməxsus orijinal üslubla, qeydlərini yarımbaşlıqlara ayırmaqla fikirlərini oxuculara daha qabarıq çatdırmağa çalışır. O, Ulduz Qasımın bədii axtarışlarını ümumiləşdirərək yazır: "Axtarış səbəbləri eynidi. Yaşadığımız zaman çərçivəsi soydaşlarımızın qazanc dalınca məcburən olmasa da, məcburi miqrasiyasından dolayı nə qədər ailələrin qəlbində sızıntılı, sağalmaz şırımlar açıb. Maddi qazanc axtarışı ilə başlayan xaotik köç karvanları sonucda ən böyük zərbələri mənəvi dəyərlərimizə vurmaqla onları sıradan çıxarmaq kimi "başından böyük qələtli" işlərə vəsilə olub. Yaxşı kt, bu zərbələr kütləviləşə, hamımızı əhatə edə bilməyib...". Bu qeydlərə nəsə əlavə etmək fikrim yoxdur.

Görkəmli şair, əməkdar incəsənət xadimi Vaqif Bəhmənlinin özü də Ulduz Qasımı hələ gənckən kəşf edən sənətkarlarımızdandır. O, öz qeydlərində U.Qasımın sənət siqlətini yüksək dəyərləndirir. Bununla da biz Ulduz Qasımın görkəmli söz xiridarlarının ədəbi-publisistik yaradıcılığında əks-sədasını yaxından müaşhidə edirik.

İstedadlı şair-publisist Hikmət Məlikzadənin, filoloq-alim Şakir Albalıyevin maraqlı qeydləri məndə belə bir təsəvvür yaratdı ki, Ulduz Qasım ciddi yaradıcı sənətkar kimi Azərbaycan ədəbi mühitində yaxından tanınır. Düşünürəm ki, söz-sənət xiridarları həm Hikmətin, həm də Şakir Albalıyevin qeydlərindəki səmimiyyəti məmnunluqla qəbul edəcəklər.

İnanıram ki, Ə.R.Xələflinin tərtibçi-müəllif hüququnda oxuculara təqdim etdiyi bu kitab da zəngin Ulduz Qasım yaradıcılığının ən müxtəlif tərəflərinə işıq salacaq, müasirlərimizin mənəvi zənginliyi üçün dəyərli qaynaq olacaqdır.

***05.07.2025***